# Mingəçevir  Dövlət Universiteti

## Mingəçevir Dövlət Universitetinin Rektorluğu Yanında
## İctimai Nəzarət Şurasının
## Əsasnaməsi

**Mingəçevir Dövlət Universitetinin rektorluğu yanında**
**İctimai Nəzarət Şurasının**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Mingəçevir Dövlət Universitetinin (MDU) rektorluğu yanında İctimai Nəzarət Şurasının (bundan sonra Şura) təşkil olunması qaydalarını, tərkibini, səlahiyyətlərini, məqsədlərini, hüquq və vəzifələrini reqlamentləşdirir.

1.2. Şura MDU rektorluğunun yanında fəaliyyət göstərən məşvərətçi qurumdur, Universitetin inkişafının strategiyası və perspektiv planının formalaşmasına, milli və beynəlxalq ümumtəhsil xidmətləri bazarında onun rəqabət qabiliyyətinə təsir göstərmək, ictimai idarətemə formalarını inkişaf etdirmək, MDU-nun təhsil, elmi və innovasiya fəaliyyətinin təkmilləşdirilməsi üçün rəy və təkliflər vermək məqsədi ilə yaradılır.

1.3. Şura öz fəaliyyətində "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nu, MDU-nun Nizamnaməsini, "İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanunu"nu, bu Əsasnaməni və digər normativ-hüquqi aktları rəhbər tutur.

1.4. Şura qanunçuluq, könüllülük, şəffaflıq, plüralizm, bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsipləri əsasında MDU-nun administrasiyası ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Şura ictimai təşkilatlarda, kütləvi informasiya vasitələrində, o cümlədən, digər təhsil müəssisələri və ayrı-ayrı vətəndaşlarla əlaqədə MDU-nun maraqlarını təmsil edir.

1.6. Şuranın səlahiyyət müddəti iki ildir.

1.7. Bu Əsasnamə MDU Elmi Şurasının qərarı əsasında MDU rektoru tərəfindən təsdiq edilir və təsdiq edildiyi gündən qüvvəyə minir.

## 2. Şuranın məqsədləri, hüquqları və vəzifələri

2.1. Şuranın əsas məqsədləri aşağıdakılardır:

- maraqlı tərəflərin MDU-nun idarə olunmasında iştiraka cəlb edilməsi;
- MDU-nun fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi;
- MDU ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili;
- MDU-nun fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması;
- MDU əməkdaşlarının və təhsilalanların hüquqlarının müdafiəsi;
- MDU-nun fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsi;
- MDU-da dövlətin təhsil siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması.

2.2. Şuranın əsas vəzifələri aşağıdakılardır:

- MDU-nun inkişaf strategiyası və proqramlarının formalaşdırılmasına, onun beynəlxalq, təhsil, elm, texniki, mədəni sahələrdə əməkdaşlığının inkişaf etdirilməsinə yardım etmək;
- MDU-nun dövlət, ictimai və işgüzar strukturlarla əməkdaşlığına yardım etmək;
- MDU-nun elm, təhsil və digər ictimai faydalı fəaliyyətini təbliğ etmək;
- MDU-nun intellektual və fiziki resurslarından istifadənin səmərəliliyini dəyərləndirmək;
- şuranın fəaliyyəti barədə əhalini məlumatlandırmaq;
- öz fəaliyyətinə dair illik hesabat hazırlamaq və dərc etdirmək;
- müzakirə olunan məsələlərə qərəzsiz yanaşmaq.

2.3. Üzərinə qoyulan vəzifələri yerinə yetirmək üçün Şuranın aşağıdakı hüquqları var:

- MDU-nun fəaliyyəti ilə bağlı MDU-nun rektorunun məruzəsini dinləmək;
- MDU-dan öz fəaliyyəti üçün zəruri olan informasiya və məlumatları, ictimaiyyətlə məsləhətləşmələr tələb edən məsələlər üzrə hüquqi aktların layihələrini müəyyən edilmiş qaydada tələb etmək və almaq;
- ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi barədə MDU-ya təkliflər vermək;

- elm və təhsil sahəsində ictimai əhəmiyyət kəsb edən məsələlərin həllinə dair vətəndaş cəmiyyəti institutlarının təkliflərini toplamaq, ümumiləşdirmək və MDU-ya təqdim etmək;
- MDU-da elm və təhsilin inkişafı məsələlərinin müzakirəsi üçün açıq tədbirlər (ictimai müzakirə, dinləmə, seminar, konfrans, dəyirmi masa və digər tədbirlər) təşkil etmək;
- ictimai rəyin öyrənilməsi üçün sorğular keçirmək və ya müvafiq təşkilatlara sorğu keçirilməsi barədə təkliflər vermək;
- dövlət orqanlarına onların səlahiyyətləri çərçivəsində MDU-nun inkişaf proqramının yerinə yetirilməsinə, onun maddi-texniki bazasının təkmilləşdirilməsinə təsir edən tədbirlər keçirmək haqqında təkliflərlə müraciət etmək;
- Şuranın səlahiyyətlərinə aid olan məsələlərin öyrənilməsi və həll edilməsi üçün komissiya və işçi qrupları yaratmaq və onların fəaliyyətləri ilə bağlı tövsiyələr hazırlamaq.
- ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) və strateji ekoloji qiymətləndirilmə (SEQ) ilə bağlı ictimai dinləmə təşkil etmək, habelə ictimai ekoloji ekspertizanı "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirmək və onun nəticələri barədə aidiyyəti üzrə məlumat vermək.

2.4. Şuranın fəaliyyətinin təşkilati, texniki (MDU-nun maliyyə vəsaitlərindən istifadə istisna olmaqla) və informasiya təminatı ilə bağlı məsələləri MDU tərəfindən həll edilir.

2.5. MDU tərəfindən şuranın sərbəst fəaliyyəti üçün şərait yaradılır.

**3. Şuranın tərkibi və fəaliyyət göstərməsi qaydası**

3.1. Şuranın tərkibi 5-10 nəfərdən ibarət olur. Şuranın tərkibinə icra hakimiyyəti orqanlarının, elmi dairələrin, kütləvi informasiya vasitələrinin, mülkiyyət formasından asılı olmayaraq ictimai birlik və cəmiyyətlərin, müəssisə, idarə və təşkilatların nümayəndələri, o cümlədən, cəmiyyət qarşısında xidmətləri olan, MDU-nun fəaliyyət məqsədlərinə uyğun olan fəaliyyət sahələrində nüfuz və nailiyyətlər qazanmış vətəndaşlar və təhsil mütəxəssisləri daxil ola bilər.

3.2. Şuranın tərkibini formalaşdırmaq üçün Komissiya yaradılır.

3.2.1. Komissiya müzakirələr əsasında şuranın tərkibinə daxil edilmək üçün namizədləri müəyyən edir və rektorluğa yazılı təqdimat verir.

3.2.2. Komissiyanın üzvləri də şuranın tərkibinə daxil edilə bilərlər.

3.2.3. Şuranın tərkibi Komissiyanın təqdimatı əsasında rektorun əmri ilə təsdiq edilir.

3.3. Şuranın üzvləri öz vəzifələrini ictimai əsaslarla yerinə yetirirlər.

3.4. Şura üzvünün səlahiyyətləri vaxtından əvvəl aşağıdakı hallarda dayandırıla bilər:
- öz xahişi ilə;
- sağlamlıq durumuna görə öz vəzifələrini yerinə yetirə bilməyəndə;
- müntəzəm olaraq şuranın iclaslarında iştirak etməkdən boyun qaçırdıqda;
- cinayət məsuliyyətinə cəlb edildikdə.

3.5. Şuraya onun sədri rəhbərlik edir.

3.6. Şuranın sədri Şura üzvləri arasından şura üzvlərinin ümumi səs çoxluğu ilə iki il müddətinə seçilir. Şuranın sədri:
- şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir;
- şuranın fəaliyyəti ilə bağlı məsələlərdə şuranı təmsil edir;
- şuranın fəaliyyətinin prioritet istiqamətlərini müəyyənləşdirir;
- şuranın iclaslarına sədrlik edir;
- şuranın qərar və göstərişlərinin yerinə yetirilməsinə nəzarət edir və onların yerinə yetirilməsini təmin edir;
- qanunvericiliyə, MDU-nun Nizamnaməsinə və bu Əsasnaməyə müvafiq olaraq digər məsələləri həll edir.

3.7. Şura sədrinin müavini şuranın iclasında şura üzvləri arasından iki il müddətinə seçilir. Sədr olmadıqda sədrin müavini onun funksiyalarını icra edir.

3.8. Şuranın katibi şuranın iclasında şura üzvləri arasından iki il müddətinə seçilir. Şuranın katibi:

- şuranın cari fəaliyyətini təmin edir;
- Şura üzvlərinin fəaliyyətini əlaqələndirir;
- şuranın aktlarını aidiyyəti üzrə təqdim edir;
- şuranın kargüzarlıq işini təşkil edir.

3.9. Şuranın iclasları ilda dörd dəfədən az olmamaq şərti ila keçirilir. Birinci iclası MDU-nun rektoru çağırır.

3.10. Şuranın növbədankənar iclasları şura sədrinin şəxsi təşəbbüsü va ya şura üzvlarinin üçdəbir hissəsinin tələbi əsasında çağırılır. Şuranın növbədənkənar iclası MDU Elmi Şurasının və ya MDU rektorunun tələbi əsasında da çağırıla bilar.

3.11. İclas keçirilmasi haqqında şura üzvlərina iclasın keçirilməsindən an azı iki gün əvvəl malumat verilməlidir.

3.12. Şuranın iclasının gündəliyinin layihəsi şura sadrinin va üzvlərinin təklifləri asasında formalaşır va iclasda təsdiq olunur. MDU şuranın müzakirəsinə məsələlər təklif edə bilər.

3.13. Şuranın iclasının keçirilməsinə hazırlıq zamanı onun sədri aşağıdakıları müəyyən edir:

- iclasın keçirilmə formasını (şura üzvlərinin birgə iştirakı və ya qiyabi sasverma);
- iclasın keçirilma tarixi, yeri va saatı, iclas qiyabi sasvermə yolu ilə keçirildikdə isə səsvermə üçün bülletenlərin qəbul edilmesinin son tarixi va doldurulmuş bülletenlərin göndəriləcəyi poçt ünvanını;
- şuranın iclasının keçirilməsi barədə şura üzvlərinin malumatlandırılması qaydalarını;
- iclasa hazırlıq zamanı şura üzvlərinə təqdim edilən informasiyanın (materialların) siyahısını və bunların təqdim edilmə qaydasını;
- bülletenlərlə səsvermə hallarında sasvermə bülletenlərinin forma və mətnini.

3.14. Şuranın iclasında onun üzvlərinin yarıdan çoxu iştirak edərsə şuranın iclası səlahiyyətli hesab edilir. Şura üzvünün öz səsini başqa bir şəxsə həvalə etməsi qadağandır.

3.15. Şuranın aktları iclasda iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir və şuranın sədri tərəfindən imzalanır. Şuranın hər bir üzvü səsvermə zamanı bir səsə malikdir. Səslər bərabər olduqda sədrlik edənin səsi halledici olur.

3.16. Şura üzvləri sırasına məşvərətçi səs qismində rektor, onun iştirakı mümkün olmadıqda isa onu əvəz edən şəxs daxil ola bilər.

3.17. Şuranın qiyabi səsvermə yolu ilə qərar gəbul etmek ixtiyarı var.

3.18. Şuranın iclaslarına şuranın sədri tərəfındən dövlat hakimiyyəti orqanlarının, digər dövlat orqanlarının, yerli idaraetmə orqanlarının, ictimai birliklərin, o cümlədən, maraqlı hüquqi va ya fiziki şəxslərin nümayəndələri dəvət oluna bilər.

3.19. MDU-nun nümayəndələri şuranın iclaslarında iştirak edə bilərlər.

3.20. Şura təşkilati məsələlər üzrə qərarlar, digər məsələlər üzrə isə rəy va təkliflər qabul edir.

3.21. Şuranən rəy və təkliflərinə MDU tərəfindən "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxılmalıdır.

3.22. Şuranın rəy və təkliflərinin nəzərə alınmaması MDU-nun vəzifəli şəxsi tərəfındən əsaslandırılmalıdır.

**4. Əsasnaməyə dəyişikliklər və əlavələr edilməsi**

4.1. Bu əsasnaməyə dəyişikliklar va əlavələr edilməsi va onun yeni redaksiyada qəbul edilməsi MDU Elmi şurasının qərarı ilə yerinə yetirilir.

**5. Şuranın yaradılması, ləğv edilməsi, yenidən təşkil edilməsi va adının dəyişdirilməsi qaydası**

5.1. Şura MDU Elmi şurasının qərarı əsasında MDU rektorunun əmri ilə yaradılır, ləğv edilir, yenidən təşkil edilir va adı dəyişdirilir.